**UDC:** 070.
**LBC:** 76.01; 76.02
**MJ №** 269
10.33864/2617-751X.2025.v8.i2.86-96

# Issues of Restoration of Historical Values in the Pages of "Azerbaijan" Newspaper (1989-1995)

## Nurana Hasanova*

**Abstract.** The article talks about the creation of the "Azerbaijan" newspaper, its activities promoting the ideas of independent statehood, and preserving our national values. From the end of the 20th century, the awakening of the people, the desire to get rid of the Soviet dependence for more than 70 years, the effort to determine the future destiny of Azerbaijan as a nation and state, the process of returning to our national roots was conveyed to the people through the media. In the late 80s of the 20th century, Azerbaijani public and artistic thought was more occupied with the injustices occurring in the country and society, the merciless massacres committed against our people, the active slander and libel campaign waged by the hated Armenians against Azerbaijan, rallies, refugees, and other problems. It should be especially emphasized that in the 80s-90s of the 20th century, the directions of activity of Azerbaijani journalists, writers-publicists, and newspapers and magazines published in Azerbaijan in general were multifaceted. Issues related to many problems that are the bearer of our national existence in the process of self-reflection and self-awareness became one of the leading problems of "Azerbaijan" newspaper as well as other press bodies. Interesting, meaningful articles on moral and ethical issues, the promotion of statehood ideas, the social roots of political processes taking place in the country, cultural issues, and other problems and topics were presented to readers on the pages of the newspaper. The “Azerbaijan” newspaper also focused on the complex socio-psychological problems occurring in society on the eve of the restoration of our state independence. From this point of view, the article interprets the articles dedicated to the preservation of Azerbaijan's statehood, the restoration of historical values, and analyzes the articles reflecting the socio-political, cultural, and spiritual life of the country.

**Keywords:** "Azerbaijan" newspaper, late 20th century, latin alphabet, historical values, national consciousness, self-reflection

* Baku State University, PhD student of the Department of History of the National Press, Faculty of Journalism; Baku, Azerbaijan
E-mail: quliyeva.nurane@gmail.com
https://orcid.org/0000-0001-5394-1064

**To cite this article:** Hasanova, N. [2024]. Issues of Restoratıon of Hıstorıcal Values ın the Pages of "Azerbaijan" Newspaper (1989-1995). *“Metafizika” journal, 8(2),* pp.86-96.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.86-96

**Article history:**
*Received: 17.01.2025*
*Accepted: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070.
**ББК:** 76.01; 76.02
**MJ №** 269
10.33864/2617-751X.2025.v8.i2.86-96

# Вопросы Восстановления Исторических Ценностей на Страницах Газеты "Азербайджан" (1989-1995 ГГ.)

## Нурана Гасанова*

**Абстракт.** В статье рассказывается о создании газеты "Азербайджан" и её деятельности по продвижению идей независимости государства и сохранению национальных ценностей. Начиная с конца 20-го века народ пробуждался, стремясь избавиться от 70-летней советской зависимости и определить будущую судьбу Азербайджана как нации и государства. В конце 1980-х годов азербайджанская общественная и художественная мысль была глубоко затронута несправедливостью, творившейся в стране и обществе, беспощадными расправами над нашим народом, активной клеветнической и дискредитационной кампанией, которую ненавистные армяне вели против Азербайджана, митингами, беженцами и т. д. проблемы были более насущными. Следует особо подчеркнуть, что в 80-90-е годы XX века деятельность азербайджанских журналистов, писателей и публицистов, и в целом газет и журналов, издававшихся в Азербайджане, была многогранной. Процесс возвращения к нашим национальным корням передавался народу через средства массовой информации. Вопросы, связанные с нашим национальным бытием и ставшие одной из ведущих проблем газеты "Азербайджан" и других печатных изданий, были подняты в статье. Морально-этические вопросы, пропаганда идей государственности, социальные корни политических процессов, происходящих в стране, культурные вопросы и т. д. На страницах газеты вниманию читателей были представлены интересные, познавательные статьи по актуальным проблемам и темам. Газета «Азербайджан» также уделила внимание сложным социально-психологическим проблемам, возникающим в обществе накануне восстановления нашей государственной независимости. Она интерпретирует статьи, посвященные сохранению азербайджанской государственности и восстановлению исторических ценностей, а также анализирует статьи, отражающие общественно-политическую, культурную и духовную жизнь страны.

**Ключевые слова:** газета «Азербайджан», конец 20 века, латиница, исторические ценности, национальное сознание, самовозврат

* Бакинский Государственный Университет, Докторант факультета журналистики, кафедры истории отечественной прессы; Баку, Азербайджан
E-mail: quliyeva.nurane@gmail.com
https://orcid.org/0000-0001-5394-1064

**Цитировать статью:** Гасанова, Н. [2025]. Вопросы Восстановления Исторических Ценностей на Страницах Газеты "Азербайджан" (1989-1995 ГГ.). *Журнал «Metafizika», 8(2),* с.86-96.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.86-96

**История статьи:**
*Статья поступила в редакцию: 17.01.2025*
*Отправлена на доработку: 18.02.2025*
*Принята для печати: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070.
**KBT:** 76.01; 76.02
**MJ №** 269
10.33864/2617-751X.2025.v8.i2.86-96

# “Azərbaycan” Qəzetinin Səhifələrində Tarixi Dəyərlərin Bərpası Məsələləri (1989-1995-ci illər)

## Nuranə Həsənova*

**Abstrakt.** Məqalədə “Azərbaycan” qəzetinin yaranmasından, fəaliyyəti ilə müstəqil dövlətçilik ideyalarını təbliğ etməsindən, milli dəyərlərimizi qoruyub saxlamasından bəhs edilir. XX əsrin sonlarından etibarən xalqın oyanışı, 70 ildən artıq bir zaman ərzində Sovet asılılığından qurtulmaq istəyi, Azərbaycanın millət və dövlət kimi gələcək taleyini müəyyənləşdirmək çabası, milli köklərimizə qayıdış prosesi mətbuat orqanları vasitəsi ilə xalqa çatdırılırdı. XX əsrin 80-ci illərinin sonlarında Azərbaycan ictimai-bədii fikrini ölkədə və cəmiyyətdə baş verən haqsızlıqlar, xalqımıza qarşı törədilən amansız qırğınlar, mənfur ermənilərin Azərbaycana qarşı apardıqları fəal böhtan və iftira kampaniyası, mitinqlər, qaçqınlar və s. problemlər daha çox məşğul edirdi. Xüsusi vurğulmaq lazımdır ki, XX əsrin 80-90-cı illərində Azərbaycan jurnalistləri, yazıçı-publisistlərinin, ümumiyyətlə, Azərbaycanda nəşr olunan qəzet və jurnalların fəaliyyət istiqamətləri çoxtərəfli olmuşdur. Özünəqayıdış, özünüdərk prosesində milli varlığımızın daşıyıcısı olan bir çox problemlər ilə bağlı məsələlər digər mətbu orqanlar kimi “Azərbaycan” qəzetinin də aparıcı problemlərindən birinə çevrilmişdi. Mənəvi-əxlaqi məsələlər, dövlətçilik ideyalarının təbliği, ölkədə baş verən siyasi proseslərin sosial kökləri, mədəniyyət məsələləri və s. problemlər və mövzular barədə maraqlı, məzmunlu məqalələr qəzetin səhifələrində oxuculara təqdim olunurdu. “Azərbaycan” qəzeti həm də dövlət müstəqilliyimizin bərpası ərəfəsində cəmiyyətdə baş verən mürəkkəb sosial-psixoloji problemləri diqqət mərkəzində saxlayırdı. Bu baxımdan məqalədə Azərbaycan dövlətçiliyinin qorunub saxlanması, tarixi dəyərlərin bərpasına həsr edilən məqalələr şərh edilir, ölkənin ictimai-siyasi, mədəni, mənəvi həyatını əks etdirən yazılar təhlil edilir.

**Açar sözlər:** “Azərbaycan” qəzeti, XX əsrin sonları, latın əlifbası, tarixi dəyərlər, milli şüur, özünəqayıdış

* Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi, Milli mətbuat tarixi kafedrasının doktorantı; Bakı, Azərbaycan
E-mail: quliyeva.nurane@gmail.com
https://orcid.org/0000-0001-5394-1064

**Məqaləyə istinad:** Həsənova, N. [2025] Azərbaycan” Qəzetinin Səhifələrində Tarixi Dəyərlərin Bərpası Məsələləri (1989-1995-ci illər). *“Metafizika” jurnalı, 8*(2), səh.86-96.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.86-96

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 17.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 18.02.2025*
*Çapa qəbul edilmişdir: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

XX əsrin sonlarında SSRİ-nin dünya iqtisadiyyatında mövqeyinin zəifləməsi, Mixail Qorbaçovun "yenidənqurma" adı ilə aparmaq istədiyi islahatların uğursuz nəticələri sovet ideoloji sisteminin zəifləməsinə şərait yaratdı. Sovet idarəçiliyinin zəifləməsi sosial ədalət istəyən qüvvələrin fəallaşmasına, SSRİ-nin tərkibində olan xalqların müstəqillik arzularına, açıqfikirliliyə meydan verilməsinə, eləcə də demokratiyanın bərqərar olması istəklərinin artmasına şərait yaratdı. 1988-ci il ermənilərin Dağlıq Qarabağda cinayətkar hadisələr törətməsi, baş vermiş bu hadisələrdən əvvəl isə Qərbi Azərbaycanda yaşayan Azərbaycan türklərinin vəhşicəsinə öz torpaqlarından deportasiya edilməsi, Qarabağda Topxana meşəsində ağacların qırılması və bununla bağlı başlanan mitinqlər hadisələrin məcrasını dəyişdi. Bu qədər haqsızlığa göz yummayan Azərbaycan xalqı meydanlara çıxaraq haqq və azadlıq səslərini ucaltmağa başladı. Sovetlər birliyinin məngənəsindən xilas olmağa çalışan xalqın müstəqilliyə addımladığı çətin və şərəfli mübarizəsi tarixə yazıldı. XX əsrin 80-90-cı illərində baş verən bu kimi hadisələr Azərbaycanın ictimai-siyasi həyatında dönüş nöqtəsinə çevrildi və bu hadisələr mətbuatdan da yan ötmədi. Dosent Aygün Əzimovanın o dövrə münasibəti bu mənada ciddi elmi-nəzəri əhəmiyyət daşıyır. O yazır: "*Milli müstəqillik əldə edildikdən sonra (1990-cı ildən) Azərbaycan publisistikası ədəbi-bədii orqanlarda çap imkanlarını və mövzu dairəsini genişləndirməyə başladı və jurnalistikanın ənənəvi maarifləndirmə, əyləndirmə və xəbərləmə funksiyaları ilə yanaşı, həm də xalqı təşkil etmək, milli müstəqillik uğrunda mübarizə aparmaq vəzifələrini də öhdəsinə götürdü*" [4].

Göründüyü kimi tədqiqatçı yalnız dövrü xarakterizə etməklə kifayətlənmir, həm də mətbuat orqanlarının Azərbaycan ictimai-siyasi fikir tarixində rolunu açıqlayır. Beləliklə, həm də xalqın arzularının ifadəçisinə çevrilən, millətə doğru yolu göstərən, azadlıq ideyalarını təbliğ edən yeni mətbuat orqanlarınn yaranmasının zəruriliyini vurğulayır. Belə mətbuat orqanlarından biri də məhz "Azərbaycan" qəzeti olur. Azərbaycan qəzetinin "1000-ci say da tarixə döndü" sərlövhəli məqaləsində deyildiyi kimi "məhz o vaxt azad mətbuatın ilk nümunəsi kimi "Azərbaycan" qəzeti xalqın səsinə və bəxtiyarlıq uğrundakı mübarizəsinə qoşuldu" [6, s.4].

Müstəqil, azad və demokratik Azərbaycan dövləti qurmaq, xalqımızın milli şüurunu özünə qaytarmaq vəzifələrini üzərinə götürən "Azərbaycan" qəzeti öz ideya istiqamətinə görə Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan "Azərbaycan"ın prinsiplərinə sadiq qalaraq xalq hərəkatının, müstəqillik tariximizin ayrılmaz hissəsinə çevrilir.

XX əsrin sonlarında müstəqillik yolunda addımlayan xalqın ilk demokratik milli ruhlu qəzeti olan "Azərbaycan" 1918-ci ildə nəşr olunan "Azərbaycan"ın

xələfi kimi 1989-cu ilin oktyabrın 4-də "Qarabağa Xalq Yardımı Komitəsinin" mətbu orqanı kimi Sabir Rüstəmxanlının redaktorluğu ilə fəaliyyətə başladı. Mənbə kimi Mehman Cavadoğlunun "72 illik ayrılıqdan sonra" məqaləsindəki sitata istinad etmək məqsədəuyğun olardı: "Məhz bu kütləvi xalq hərəkatının dalğasında Sabir Rüstəmxanlının redaktorluğu ilə "Azərbaycan" qəzeti nəşrə başladı. Bu qəzet Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarını yaydı. Özü də elə bir vaxtda ki, nə həmin cümhuriyyətin, nə də onların liderlərinin adlarını çəkməyə icazə verilirdi".

Sonrakı illərdə qəzetin baş redaktoru olan Mehman Cavadoğlu sözügedən yazıda "Azərbaycan" qəzetinin keçdiyi tarixi yola nəzər salır, 1918-1920-ci illərdə 443 nömrəsi işıq üzü görən "Azərbaycan" qəzetinin müxtəlif vaxtlarda redaktorları olmuş Ceyhun və Üzeyir Hacıbəyov qardaşlarının, Xəlil İbrahimin, Şəfi bəy Rüstəmbəylinin dövlətçilik ideyalarının təbliğatçısına çevirdiyi mətbu orqanın mübarizə tarixindən yazır: "O dövrün əksər ziyalıları və dövlət xadimləri böyük Məmməd Əminin başçılığı altında bu ideyaları həyata keçirmək üçün mübarizə aparmış, öz canlarını və qanlarını əsirgəməmişlər. "Azərbaycan" qəzeti də bu mübarizədə onların ən yaxın yardımçısı olmuşdur" [2, s.1].

Qəzet 1992-ci il 23 sentyabr tarixindən etibarən parlamentin mətbu orqanı kimi fəaliyyətini davam etdirir. Mehman bəy 1992-ci il tarixindən etibarən "Azərbaycan" qəzetinin dövlət qəzeti statusuna qayıtdığını qeyd edir. Bildirir ki, qəzet xalqın üzləşdiyi problemlərdən ətraflı bəhs edəcək, eləcə də "*dövlətin, hökumətin fəaliyyətinə və cəmiyyətdə baş verən proseslərə hərtərəfli diqqət yetirəcək*" [2, s.1].

**2.Latın əlifbasının bərpası məsələləri**

Cəmiyyətin inkişafı, tərəqqisi naminə çalışan, vətənə məhəbbət, yurd sevgisi hisslərini xalqa aşılayan, milli kimliyimizin, tarixi yaddaşımızın bərpası istiqamətində yorulmaq bilmədən xidmət göstərən qəzetin müstəsna rolu danılmazdır. "Azərbaycan" qəzeti öz fəaliyyəti ilə həm də Azərbaycan həqiqətlərinin dünya miqyasında yayılması missiyasının öhdəsindən də uğurla gəlib. Müstəqil dövlət ideyalarının carçısına çevrilən qəzet dövlət rəmzlərinin, ana dilimizin qorunması, latın əlifbasının bərpası, mədəniyyət nümunələrinin mübariz keşikçisinə çevrilib.

Xalqın siması onun dilində, mədəniyyətində, əlifbasında öz əksini tapır. Respublikanın müstəqilliyinə dəlalət edən əsas amillərdən biri əlifbanın bərpası məsələsi idi. Məhz bu baxımdan "Azərbaycan" qəzetinin ayrı-ayrı saylarında latın əlifbasına keçid ilə bağlı dövrün ziyalılarının, jurnalist və alimlərinin müxtəlif başlıqda yazdıqları publisistik materialları Azərbaycan jurnalistikasının çağdaş axtarışları baxımından əhəmiyyəti son dərəcədə böyükdür. Qəzetin müxtəlif saylarında latın qrafikasına əsaslanan Azərbaycan

türk əlifbasının bərpa olunmasının vacibliyi məsələsi işıqlandırılıb, oxucu kütləsinə çatdırılıb.

“Azərbaycan” qəzetinin 1 may 1991-ci il 18-ci sayında dərc olunan “Yeni əlifba niyə yaşamadı” başlıqlı məqalə latın əlifbasının bərpasına həsr olunan, dövr üçün aktualllığı ilə diqqəti cəlb edən maraqlı yazı nümunəsidir. Məqalənin müəllifi filologiya elmləri namizədi Bədirxan Əhmədov 1929-cu ildə “Kommunist” qəzetində çap edilən, “mədəni inqilab gününü” özündə əks etdirən şəkli xalqa çatdıraraq onu şərh edir. Şəkildə təsvir edilən Azərbaycanlı kişilər milləti inkişaf yoluna çıxaracaqlarına inandıqları latın əlifbasına “Yaşasın” deyirlər. Lakin çox keçmir ki, 1940-cı ildə Azərbaycan SSRİ Ali Sovetinin ikinci sessiyasında rus əlifbasına keçilməsi barədə yekdilliklə qərar qəbul edilir. Latın əlifbasından rus əlifbasına keçid bir neçə ay ərzində xalqın rəyi nəzərə alınmadan həyata keçirilir. Müəllif latın əlifbasından rus əlifbasına keçidi Azərbaycanın bütünlüklə Şərqdən, eləcə də tarixindən, keçmiş mədəniyyətindən ayırmağa yönəlmiş, sosializmi qurmağa xidmət edən plan olduğunu tutarlı faktlarla ifadə edir. Bundan əlavə “əski əlifbadan –latına keçməyimizi “tam”, latından – rusa keçməyimizi isə sosializmin Azərbaycanda “qəti” qələbəsi” hesab edirdi [3, s.1].

B.Əhmədov xalqın rus müstəmləkəsi əsarəti altında yaşamasından bəhs edərək bu illər ərzində ictimaiyyətin “latın əlifbasına qayıtmaq” problemi qarşısında aciz qalması məsələsindən narahatlığını ifadə edir. Onun sözlərinə görə, zamanın xalqa verdiyi mübarizlik ruhu, müstəqillik arzularının timsalında “Yaşasın yeni əlifba” şüarı reallığa çevriləcək və latın əlifbasının bərpası istiqamətində zəruri tədbirlər görüləcək.

Latın qrafikalı Azərbaycan əlifbasının bərpası məsələsinin zəruriliyini isbat edən daha bir yazı qəzetin 1991-ci il 26 və 28-ci nömrələrində dərc olunan “*Latın qrafikasına qarşı hikkəli münasibət*” başlıqlı məqalədir. Professor Əlisa Şükürlünün müəllifi olduğu məqalə latın qrafikalı əlifbanın bərpası ətrafında aparılan qəzet və jurnallarda, televiziya və radio verilişlərində müzakirələr, səsləndirilən fikir və mülahizələrin təhlilinə həsr edilib. Xüsusilə də 1991-ci ildə “Mübarizə” qəzetində Əlişanoğlu soyadlı bir nəfərin “Əlifba problemi: illuziyalar, arqumentlər, şübhələr” adlı məqaləsi şərh edilib. Adı çəkilən son yazıda latın əlifbasının bərpası məsələsinə hikkəli münasibət ifadə olunub və məqalə müəllifi təkidlə xalqı kiril və ya ərəb əlifbasının yararlı olmasına inandırması öz əksini tapıb. “Əlişanoğluna görə latın qrafikalı əlifbamızın bərpasını tələb edənlərin əlifba komissiyalarına, qəzet jurnal redaksiyalarına göndərdikləri məktublar lap 90-95 faiz təşkil etsə belə, onları xalqın rəyi kimi qəbul etmək olmaz”, - deyə bildirən Əlisa Şükürlü bunu Əlişanoğlunun latın qrafikalı əlifbamızın bərpasına yönələn barışmaz mövqeyi ilə əlaqələndirir [8, s.4].

Məqalədə həm də iki tarixi dövr arasına körpü salınır, latın qrafikasına keçilməsinin üstünlükləri sadalanır. Bu məqsədlə hələ 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin parlametində sözügedən məsələnin müzakirə edildiyini və dövrün görkəmli ziyalıları Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mirzə Bala Məmmədzadənin layihəni bəyəndiklərini diqqətə çatdırır.

Firudin Ağasıoğlunun "Ziyanın yarısından" sərlövhəli məqaləsi də latın əlifbasının əhəmiyyətini göstərmək üçün parlaq misaldır. Yazı qəzetin 7 aprel 1990-cı il 9-cu nömrəsində oxucuların müzakirəsinə təqdim edilib. Məqalənin əsas məzmununu latın qrafikalı əlifbaya keçidlə əlaqələndirən müəllif qeyd edir ki, Azərbaycan türkləri son əsrdə üç müxtəlif əlifbadan istifadə etmiş, on beş ilin içində iki dəfə mədəniyyət güzgüsü dəyişmişdir. F.Ağasıoğlu xalqın tarixində ictimai hadisə hesab edilən əlifba islahatının hər zaman baş vermədiyini, ya zorla, digər halda isə xalqın öz istəyi olduğunu diqqətə çatdırır. Onun sözlərinə görə, əlifba imperiya şəraitində güclü siyasi silaha çevrilir. Bunun vasitəsilə xalq öz tarixi kökündən uzaq salınır, nəsillər dəyişdikcə doğma dildən, milli kimlikdən, qan yaddaşından ayrı düşür.

Müəllif Azərbaycan xalqının bu iki əsrdə bütövlüyünü, müstəqilliyini, milli varlığını, soyadlarını, yazı mədəniyyətini, tarixi şəxsiyyətlərimizi itirməyimiz, nəsillər arasında mədəniyyət körpüsünün iki dəfə dağıdılmasını ürək yanğısı ilə poetik dillə oxuculara çatdırıraq yazır: "İndi Dədə Qorqudu, Füzulini, hətta Ələsgəri, Şəhriyarı orijinaldan oxuya bilən ziyalıları barmaqla sayırıq, Cavidin yazılarını kiril hərflərinə çevirib oxuyuruq" [1, s.4].

Publisist təzyiq altında qəbul edilən kiril əlifbasının xalqın mədəniyyət işığını söndürdüyünü millətə çatdırmaq üçün qeyd edir ki, əlifbanı dəyişmək xalqın mənəviyyatına, mədəniyyətinə vurulan ağır zərbədir. Onun sözlərinə görə, Avropadan Çinə, İraqdan Yakutiyə qədər yayılan türklərin mədəni əlaqəsini təmin etmək üçün ortaq, vahid əlifbaya keçid etmək ilə mümkündür. Azərbaycanda da ictimai-siyasi oyanışın bərqərar olduğu bir zamanda xalqın iqtisadi, mədəni və siyasi azadlıq istədiyi bir vaxtda mədəni islahatın həyata keçirilməsi, yəni latın qrafikalı əlifbanın qəbul edilməsi vacib amillərdən birinə çevrilir. "Türk xalqları, o cümlədən, Azərbaycan türkləri ümumdünya mədəniyyət açarını itirməmək üçün yeni əlifbadan istifadə etməlidir", - deyə bildirən F.Ağasıoğlu bütün müsbət və mənfi cəhətlərini götür-qoy etməklə latın qrafikalı əlifbaya qayıtmağı ən düzgün yol hesab edir [1, s.4].

Nəhayət, latın qrafikalı əlifbaya keçidlə bağlı irəli sürülən təşəbbüslər, mətbuatda sadalanan bütün müzakirələr, təhlillərdən sonra yeni əlifbaya keçidin zəruriliyi elmi faktlarla əsaslandırılaraq 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında Azərbaycan Respublikasının qanunu

qüvvəyə minir və müstəqilliyin növbəti illərində latın qrafikalı əlifbaya keçid ölkədə bütövlüklə təmin edilir.

**3.Sovet imperiyasının saxtalaşdırdığı tarixi faktlar**

Milli köklərə qayıdış həm də tarixi faktların, şəxsiyyətlərimizin, görkəmli dövlət xadimlərimizin gizli qalan həyatı, fəaliyyəti barədə məlumatların xalqa çatdırılması idi. Bu prosesdə milləti maarifləndirmək, reallıqları işıqlandırmaq istiqamətində “Azərbaycan” qəzetinin gördüyü xidmətlər əvəzsizdir. Milli istiqlaliyyət, azadlıq, demokratik dəyərlər uğrunda xalqın inqilabi hərəkatı tarixində iz qoyan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti barədə silsilə yazılar digər mətbu orqanlar ilə yanaşı “Azərbaycan” qəzetinin səhifələrində də işıqlandırılmağa başlayır.

Məlumdur ki, Cümhuriyyətin fəaliyyəti uzun müddət xalqdan gizlədilmiş, təhrif olunmuş, onun yaradıcılarına, onların fəaliyyətlərinə kölgə salınmış, iftiralar yağdırılmışdır. Sabir Rüstəmxanlının təbiri ilə desək, 70 ildən sonra əyri güzgüdə göstərilmiş, söyülmüş, düşmən cildi geyindirilmiş böyük övladlarımızın cəfakeş millət xadimlərimizin haqları özlərinə qaytarıldı, adları milyonların dilinə.

Bu barədə qəzetin 1990-cı il 24 avqust sayında “Tarix və şəxsiyyət” bölməsi adı altında “Böhtan davam edir” yazısında ətraflı məlumat verilib. Məqalədə Cümhuriyyətin yaranmasının 72-ci il dönümünə həsr olunan məsələ müzakirəyə çıxarılır və bu tarixin “ağ ləkələrini” açmaq üçün mühüm addım kimi qiymətləndirilir. Məqalə müəllifi Firuz Muxtaroğlu Cümhuriyyətin fəaliyyətini gizli saxlamaq istəyənlərin böhtanlarını belə qeyd edir: “Guya Cümhuriyyətin 23 aylıq fəaliyyəti dövründə sinfi ziddiyyətlər kəskinləşmiş, bu isə Sovet hakimiyyəti uğrunda mübazirənin güclənməsinə gətirib çıxarmışdır” [7, s.7]. O, tarixi sənədlərə əsasən çıxış edərək AXC dövründə Bakıda və respublikanın digər rayonlarında fəhlə və kəndlilərin hüquqlarını sahibkarların və mülkədarların özbaşınalığından qoruyan kəsərli qanunların tətbiq edildiyini, elm, mədəniyyət və xalq təhsili sahələrində müvəffəqiyyətlər əldə edildiyini diqqətə çatdırır. Müəllif qeyd edir ki, AXC dövründə başlıca olaraq xalqın milli istiqlaliyyəti bərpa olunmuşdur. Onun sözlərinə görə, vaxtilə təhrif və böhtanı özləri üçün elmi prinsip qəbul edən, bunun müqabilində elmi dərəcələr alan “alimlər”in bəziləri hələ də öz mənfi düşüncələrini dəyişməyib, Sovet Azərbaycanın yaradılması üçün cümhuriyyəti zəmin hesab ediblər. F.Muxtaroğlu milli istiqlaliyyətimizi əlimizdən alan, vətənimizin sərvətlərini yeddi onillikdə talan və istismar edən, vətənpərvər Azərbaycan oğullarını məhvə düçar edən Sovet imperiyasını Cümhuriyyət ilə müqayisə edənləri ədalətsiz və qeyri-obyektiv adlandırır. Cümhuriyyət rəhbərlərinə qara yaxanları diktaturanın sözçüsü kimi qiymətləndirir. Müəllif məqalənin sonunda mənəvi oyanış prosesinin lazımı səviyyəyə çatması ilə totalitar

rejimin tarixçilərinin reallıqları etiraf edəcəyinə inanır. Firuz Muxtaroğlu və bu kimi digər alim və jurnalistlərimizin inandığı kimi müstəqillik illərində Cümhuriyyət qurucularına "bəarət" verilir, onların həyatları, fəaliyyətləri tədqiqat obyektinə çevrilir və gerçəklər xalqa çatdırılır.

Qəzetin müxtəlif nömrələrində "Milli Cümhuriyyətin ikinci paytaxtı", "Məhəmməd Əmin Rəsulzadə", "Azərbaycan mütəffəkirlərinin milli intibah arzuları", "Apreldən əvvəl başlanan may", "Dünyanı dolaşan dünya ömürlü Azərbaycan", "ADR müstəqil maliyyə siyasətini necə qururdu", "Cümhuriyyətin Gəncə liderləri", "Necə ki "Azərbaycan" var" bu və ya digər məqalələr cümhuriyyətin tarixi fəaliyyətini gerçək faktlara dayanaraq xalqa çatdırıb. Cümhuriyyət qurucularının yazdıqları "Nümuneyi-imtisal bir gün", "Diz çöküm bayrağın o üç rənginə", "İlk məqalə", "Bir yaş", "Azərbaycan milli şurasının müraciətnaməsi" kimi məqalələr isə tədqiqatçılar tərəfindən araşdırılaraq qəzetin səhifələrində olduğu kimi dərc edilmişdir.

Mətbuat orqanının 1990-cı il 4-cü sayında Azərbaycan mətbuat tarixinin görkəmli tədqiqatçısı, alim, jurnalist Şirməmməd Hüseynovun Azərbaycan şəhidlərinin xatirəsinə həsr etdiyi araşdırma yazısı dərc edilib. Azərbaycan xalqının XX əsrin 90-cı ilində öz varlığını qorumaq üçün mübarizə aparmasını və bu yolda igid oğullarımızın şəhid olmasının, onların qanı bahasına qazanılan var olan müstəqil Azərbaycanın qüvvət və qüdrətindən bəhs edən Ş.Hüseynov azadlığımızı onların sayəsində əldə etdiyimizi qeyd edib. Bildirib ki, "öz şəhidlərini, günahsız qurbanlarını anmayan, onların ruhu, əməlləri və məzarları qarşısında baş əyməyən, diz çökməyən xalqı da xalq deyil, əhali adlandırırlar" [5, s.5]. Sözügedən yazı ilə milli kimliyimizi, mənəvi varlığımızı əks etdirən müəllif həm də tarixi vərəqləyərək 1918-ci il 31 mart soyqırımını xatırlamış, bu faciədə şəhid olmuş günahsız qurbanların xatirəsinə ithafən "Azərbaycan" qəzetinin 1919-cu il aprelin 2-də nəşr edilmiş "Nümuneyi-imtisal bir gün" sərlövhəli məqaləsini oxuculara təqdim etmişdir.

**4.Nəticə**

Göründüyü kimi Sovet hakimiyyəti illərindən fərqli olaraq jurnalistikada, ədəbi-bədii mühitdə ictimai-siyasi mətləb və məqsədlər açıq formada təhlil edilir, xalqın illərdən bəri arzuladığı müstəqillik haqqında düşüncələr operativ şəkildə ictimaiyyətə çatdırılırdı. XX əsrin sonlarında Azərbaycanda fəaliyyətə başlayan bütün mətbuat orqanları kimi "Azərbaycan" qəzeti də "yenidənqurma"nın verdiyi imkanlardan mümkün qədər çox yararlanmağa çalışırdı. Diqqətəlayiq haldır ki, Azərbaycanın müstəqilliyini əldə etməsində ictimai fikri formalaşdıran, oxucu marağı və ictimai rəyə istinad edən "Azərbaycan" qəzeti auditoriyanın tələblərini nəzərə alaraq sovet hakimiyyətinin mahiyyətini açıqlayır, milli müstəqillik tarixinin ayrı-ayrı səhifələrini işıqlandırır, xalq yaddaşının dərinliklərinə nüfuz edir və

müstəqilliyin ən böyük ictimai sərvət olduğunu ön planda saxlayırdı. Vətənin, millətin istiqlalı yolunda çalışan "Azərbaycan" qəzeti dövlət quruculuğu, iqtisadi və sosial problemlər, mədəniyyət, ədəbiyyat, incəsənətin inkişafı, siyasi qüvvələr arasındakı mübarizə, mühüm beynəlxalq hadisələr və s. bu kimi məsələlərə münasibət bildirir, dövlətin milli maraqlarından çıxış edərək xalqı Azərbaycan istiqlalı ideyası ətrafında birləşməsinə nail olurdu.

Azərbaycanın informasiya sistemində əhəmiyyətli yer tutan, cümhuriyyət qurucularının yadigarı olan "Azərbaycan" qəzeti bugünkü gün də mövqeyini qoruyaraq öz səhifələrində tariximizdən, dövlətin inkişafından, işıqlı gələcəyimizdən bəhs edən yazılar dərc edir. Müstəqillik dövrü tarixinin yazılmasında mənbə rolunu oynayan qəzet həm də dövlət sənədlərini, sərəncam və qərarları çap etməklə Azərbaycanın bütün sahələrdəki mühüm fəaliyyətini işıqlandırır.

## ƏDƏBİYYAT

1. Ağasıoğlu, F. (1990, aprel 7). Ziyanın yarısından. *Azərbaycan qəzeti*, (9), s.4.
2. Cavadoğlu, M. (1992, sentyabr 23). 72 illik ayrılıqdan sonra. *Azərbaycan qəzeti*, s.1.
3. Əhmədov, B. (1991, may 1). Yeni əlifba niyə yaşamadı. *Azərbaycan qəzeti*, (18), s.1.
4. Əzimova, A. (2018). *Müstəqillik dövrü Azərbaycan bədii publisistikası.* Bakı: Elm və təhsil.
5. Hüseynov, Ş. (1990, mart 2). Nümuneyi-imtisal bir gün. *Azərbaycan qəzeti*, s.5.
6. Rüstəmxanlı, S. (1994, dekabr 6). 1000-ci say da tarixə döndü. *Azərbaycan qəzeti*, s.4.
7. Muxtaroğlu, F. (1990, avqust 24). Böhtan davam edir. *Azərbaycan qəzeti*, (31), s.7.
8. Şükürlü, Ə. (n.d.). Latın qrafikasına qarşı hikkəli münasibət. *Azərbaycan qəzeti*, (26), (28), s.4.

## REFERENCES

1. Aghasioglu, F. (1990, April 7). Half of the damage. *Azerbaijan newspaper*, (9), p.4. (in Azerbaijani)
2. Javadoglu, M. (1992, September 23). After 72 years of separation. *Azerbaijan newspaper*, p.1. (in Azerbaijani)
3. Ahmadov, B. (1991, May 1). Why didn't the new alphabet survive? *Azerbaijan newspaper*, (18), p.1. (in Azerbaijani)

4. Azimova, A. (2018). *Artistic journalism of Azerbaijan in the period of independence*. Baku: Elm ve Tehsil. (in Azerbaijani)
5. Huseynov, Sh. (1990, March 2). An exemplary day. *Azerbaijan newspaper*, p.5. (in Azerbaijani)
6. Rustamkhanli, S. (1994, December 6). The 1000th issue has also become history. *Azerbaijan newspaper*, p.4. (in Azerbaijani)
7. Mukhtaroglu, F. (1990, August 24). The slander continues. *Azerbaijan newspaper*, (31), p.7. (in Azerbaijani)
8. Shukurly, A. (n.d.). A hostile attitude towards the Latin script. *Azerbaijan newspaper*, (26), (28), p.4. (070.in Azerbaijani)